Bu silsilədə gedən şeirlər dünya şöhrətli
Azərbaycan oğluna - Heydər Əliyevə
duyduğum iftixar hissindən yaranmışdır.

## AQİL MÖTƏBƏR

Bir xalqın başında aqil, mötəbər,
Tədbirli bir başçı durmasa əgər,
O xalqı qurd nədir,
Tülkülər yeyər.

Bir xalqın başında xalq, millətcanlı,
Dönməz, cəsarətli, təmiz vicdanlı,
Xalqlar arasında şöhrətli, şanlı
Bir başçı durmasa, sözündə kəsər
O xalqın başını düşmənlər əyər
Onu ac tülkülər, çaqqallar yeyər.

Aqilə, cahilə fərq qoymayanlar,
Yeyib xalq malını heç doymayanlar,
Bunu hardan bilər o kor vicdanlar
Bir xalqın başında bir ər oğlu - ər
Durmasa əgər,
O xalqı tülkülər, çaqqallar yeyər.

Sən ey Ər oğullar böyüdən millət,
Sənə min təzim! Sənə min hörmət!

***1996***

***Mirvarid Dilbazi***
***Seçilmiş əsərləri. – B. : Lider, 2004. – S.55.***